**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, XXXXIII buraxılış, Bakı, 2023
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXIII выпуск, Баку, 2023*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Arts, XXXXIII edition, Baku, 2023*

**UOT: 780.06**
**DOI: 10.52094/3005-9941.43.2023.28**

**Samaneh Habibollah qızı Arsalani**
**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası**
**doktorant**
**E-mail:Samanearsalani@yahoo.com**

# AZƏRBAYCAN AŞIQ SƏNƏTİNİN ƏSAS SPESİFİK MƏZİYYƏTLƏRİ

**Xülasə**: Məqalədə aşıq sənətinin spesifik xüsusiyyətləri, öz sinkretikliyi baxımından instrumental və vokal ifaçılığının, poeziya (şairlik), teatr (artistlik) və xoreoqrafiya (rəqs) kimi sənət növlərinin vəhdəti şəklində təzahürü şərh edilmişdir. Burada aşıqların səs imkanları, ifaçılıq üsulları, səhnə bacarıqları haqqında geniş məlumat açıqlanmışdır. Məqalədə aşıq sənətinin öyrənilməsinə dair bir çox bəstəkar, musiqişünas, eləcə də ədəbiyyatşünas-alimlərin yazdıqları kitablar, elmi əsərlər qeyd edilmiş, həmin mənbələrdən sitatlar işıqlandırılmışdır.

**Açar sözlər:** aşıq, saz, poeziya, ifaçılıq, deyişmə

Özündə poeziya, musiqi və ifaçılığı birləşdirən Aşıq sənəti – xalq-professional musiqisi olaraq xalqın fəlsəfi mədəniyyətinin formalaşdığı xüsusi bədii təfəkkür sahəsi, ictimai təfəkkürün müxtəlif inkişaf mərhələlərində meydana gələn yaradıcılıq növüdür. “Xalq-professional musiqisi” termini xalq yaradıcılığı ilə professional yaradıcılığın qovuşuq münasibətindən yaranmışdır. “Professional musiqi” kateqoriyası isə üç sahəni; “bəstəkarlıq yaradıcılığı”, “muğam sənəti” (şifahi ənənəli professional musiqi) və “aşıq sənəti”ni (xalq-professional musiqisi) özündə ehtiva edir.

Azərbaycan aşıq sənəti ilə muğam sənətinin eyni kökdən qaynaqlandığı bu günə kimi yazılmış bir çox mənbələrdə qeyd edilmişdir. Məsələn, Azərbaycanın görkəmli bəstəkarı Əfrasiyab Bədəlbəyli (1907-1976) özünün “İzahlı monoqrafik musiqi lüğəti” kitabında yazır ki; *“Şirəsini dərin kök saldığı bir torpaqdan alan, eyni kök üzərində pərvəriş tapıb ucalan möhtəşəm nəhəng ağacın iki böyük şaxəsi kimi, özlüyündə hər birinin bir çox qol-budağı olan aşıq yaradıcılığı ilə muğamat genetik cəhətdən bir-biri ilə sıx bağlıdır. Məhz bu üzvi təəllüqlə əlaqədar olaraq xalqımızın bu zəngin musiqi irsini iki aspekt üzrə öyrənib tədqiq etmək lazımdır”*. **[1; s.16]**

Digər bir mənbə kimi tanınmış musiqişünas, tədqiqatçı-alim Tariel Məmmədovun 2011-ci ildə nəşr olunmuş “Azərbaycan aşıq yaradıcılığı” kitabını göstərə bilərik. Burada müəllif aşıq və muğam sənətinin qarşılıqlı əlaqə prinsiplərini geniş şəkildə təhlil etmiş, eləcə də aşıq sənətini məhz “xalq-professional musiqisi” anlamında təqdim etmişdir **[5; s.19-24]**.

Aşıq sənətindən bəhs edərkən ilk növbədə “aşıq” sözünün etimologiyasını açıqlamalıyıq. “Aşıq” kəlməsinin məna çalarlarından bəhs edən Azərbaycan alimləri onun ərəb dilindəki “aşiq” sözündən alındığını və Azərbaycan dilinin ahəng qanununun təsiri ilə “aşıq” kimi tələffüz olunduğunu qeyd edirlər.

“Aşıq” termini bir sənətkar titulu kimi XV əsrdən ortaya çıxmışdır. Adının əvvəlinə “aşıq” sözü əlavə olunan ilk xalq sənətkarları aşıqlıq sənətində dərin kök atmış, bu sənətin məktəbini yaratmış Qurbani (XVI əsr) və Abbas Tufarqanlı (XVII əsr) sayılır. Türk teatrşü-

nası, yazıçı-tənqidçi Özdəmir Nutku (1931-2019) özünün "Aşıq və məddah hekayələri" məqaləsində yazır ki; *"On beşinci yüzildən sonra "ozan" sözü yerini Anadolu və Azəri türkləri arasında "aşıq" sözünə, Türkmənlərdə də "baxşı"ya vermişdir" (türk dilində).* **[7; s.183]**

Ümumiyyətlə, Azərbaycan aşıq yaradıcılığını səhifələyərkən müxtəlif dövrlərdə, fərqli tarixi ərazilərdə "ozan" məfhumu "dədə", "lələ", "ustad", "yanşaq" və "aşıq" kimi adlarla tanınmışdır.

Aşıq sənəti XX əsrin ortalarından tədqiq olunmağa başlayıb. Azərbaycanda aşıq havalarının toplanması, nəşri və öyrənilməsinin əsası qoyulub. Bu təməlin qoyulmasında dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin adını xüsusi qeyd etməliyik. Belə ki, o dövrdə aşıq poeziyasını toplayıb öyrənən bir çox ədəbiyyatçıların yazılarında aşıq sənəti ədəbi-tarixi yönümdə araşdırıldığından, musiqi yaradıcılığı məsələləri kölgədə qalırdı. Məhz bu problemin işıqlanmasında Ü.Hacıbəylinin əsərlərinin çox böyük əhəmiyyəti olmuşdur. Bəstəkarın 1945-ci ildə nəşr olunmuş "Azərbaycan xalq musiqisinin əsasları" adlı monumental əsərindəki lad sisteminin qanunauyğunluqları istər muğam sənətindəki məqam anlayışını, istərsə də aşıq havalarının lad-məqam xüsusiyyətlərini musiqinin nəzəri baxımından bütün incəliklərinə kimi açıqlayır. Üzeyir bəy özünün "Azərbaycan musiqi həyatına bir nəzər" məqaləsində aşıqların və xanəndələrin müqayisəli qısa xarakteristikasını, onların ifaçılıq xüsusiyyətlərinin, repertuarının və s. təsvir və təhlilini vermişdir.

1932-ci ildə görkəmli müğənni Bülbülün (Murtuza Məmmədov) rəhbərliyi ilə Azərbaycan Konservatoriyasının nəzdində fəaliyyətə başlamış "elmi-tədqiqat musiqi kabinəsi" (ETMK) milli musiqinin, o cümlədən aşıq sənətinin tədqiqi üçün böyük imkanlar açmışdır. Belə ki, ETMK-nin fəaliyyəti dövründə Azərbaycanın bir çox bölgələrinə (Ağdam-Şuşa-Füzuli, Masallı-Lənkəran-Astara, Şəki-Zaqatala-Qax, Gəncə-Tovuz-Qazax, Quba-Qusar-Xaçmaz, Dilican-Basarkeçər-Borçalı) ekspedisiyalar təşkil olunmuş, xalq musiqisinin 1500 nümunəsi – muğamlar, təsniflər, mahnılar, aşıq havaları və rəqs melodiyaları toplanmışdır. Sonradan bu havalar nota alınmış, sənədləşdirilmiş və çox hissəsi nəşr edilmişdir. Aşıq havalarından ibarət çap olunmuş not nəşrlərindən Səid Rüstəmovun dörd dəftərdən ibarət "Azərbaycan aşıq havaları" (1938) məcmuəsini, Respublika Xalq Yaradıcılığı Evinin kitabxanasında əlyazma şəklində saxlanılan Qənbər Hüseynli tərəfindən nota alınmış 55 aşıq melodiyasını nümunə gətirə bilərik. Onu da qeyd etmək lazımdır ki, bu melodiyalar 1960-cı ildə bir çox bəstəkar və musiqişünaslar (N.Əliverdibəyov, Q.Hüseynli, İ.Quliyev, B.Hüseynli, S.Rüstəmov və s.) tərəfindən işlənərək çap olunmuşdur. Belə havalardan "Baş müxəmməs", "Dilqəmi", "Gödək donu", "Göyçə gözəlləməsi", "Mirzəcanı", "Qəhrəmani", "Şahsevəni" və digərlərini göstərə bilərik.

Aşıq sənəti haqqında ilk yazılı mənbələrdən məşhur musiqişünas-alim Viktor Mixayloviç Belyayevin (1888-1968) "SSRİ xalqlarının musiqi tarixi üzrə oçerklər" (1963), "Azərbaycanın musiqi mədəniyyəti" (1955) və "Musiqi folkloru və qədim yazılar haqqında" (1971), Üzeyir Əbdülhüseyn oğlu Hacıbəylinin (1885-1948) "Azərbaycan xalq musiqisinin əsasları" (1945), "Azərbaycanın musiqi sənəti haqqında" (1966), Vladimir Aleksandroviç Qordlevskinin (1876-1956) "Kiçik Asiyanın Səlcuqilər dövləti" (1941), Vladimir Mixayloviç Krivonosovun (1904-1941) "Azərbaycan musiqi folkloru (1938)", "Azərbaycan aşıqları" (1938), Viktor Sergeyeviç Vinoqradovun (1899-1992) "Üzeyir Hacıbəyov və Azərbaycan musiqisi" (1938), Viktor Maksimoviç Jirmunskinin (1891-1971) "Türkün qəhrəmanlıq eposu" (1974), Yevgeniy Eduardoviç Bertelsin (1890-1957) "İranın ədəbiyyat və mədəniyyət tarixi" (1988), Eduard Yefimoviç Alekseyevin (1937-2021) "Folklor müasir mədəniyyət

kontekstində” (1988), Əminə Eldarovanın (1924-2006) “Aşıq sənətinin bəzi məsələləri” (1947), “Saz aşıqların əsas musiqi alətidir” (1961) əsərləri aşıq sənətinin tədqiqi sahəsini xeyli zənginləşdirmişdir.

İlk yazılmış mənbələr siyahısında görkəmli ədəbiyyatşünas-alim Hümmət Əlizadənin (1907-1941) “Azərbaycan el ədəbiyyatı” (1929), eləcə də Azərbaycan SSR Elmlər Akademiyasının tanınmış ədəbiyyatçı-folklorşünas akademikləri Mirzə İbrahimovun (1911-1993) “Aşıq poeziyasında realizm” (1966), Həmid Araslının (1909-1983) “Aşıq yaradıcılığı” (1960), Məmmədhüseyn Təhmasibin (1907-1982) beş cilddən ibarət “Azərbaycan xalq dastanları” (1972) adlı tədqiqatlarında Azərbaycan aşıq sənətinin ayrı-ayrı istiqamətləri işıqlandırılmışdır.

Həmin illərdə aşıq sənətinin tədqiqi ilə bağlı Əhliman Axundovun, Mirəli Seyidovun, Fərhad Fərhadovun, Mürsəl Həkimovun, İslam Ələsgərovun və digər filoloqların aşıq yaradıcılığına və aşıq poeziyasına dair yazdıqları dissertasiyaların əhəmiyyətini də vurğulamalıyıq.

Ömrünü aşıq sənətinin araşdırılmasına və təbliğinə həsr edən, bu sənətin ilk tədqiqatçılarından sayılan musiqişünas-alim, Əminə Eldarova Azərbaycanın ən məşhur, ustad aşıqlarının ifasından çox sayda aşıq havaları, zəngin bir xəzinə toplamışdır. Onun müəllifi olduğu çoxsaylı əsərlər, elmi məqalələr bu gün musiqişünaslıqda, aşıqşünaslıqda çox dəyərli mənbələrdən sayılmaqdadır. Ə.Eldarova topladığı materiallar haqqında özünün “Azərbaycan aşıq sənəti” adlı məqaləsində qeyd edir ki; *“Tədqiqatın məxəzşünaslıq zəminini aşıq irsinin çap olunmuş musiqi və poeziya nümunələri, bu sənətin Azərbaycan, Gürcüstan və Ermənistandakı ən yaxşı ustadlarının ifasında yazdığımız havacat, Azərbaycan SSR EA Əlyazmaları Fondunda, Nizami adına Ədəbiyyat İnstitutunun, Memarlıq və İncəsənət İnstitutunun, Aşıq Ələsgər adına Xalq Yaradıcılığı Evinin, Respublika Mədəniyyət Nazirliyinin arxivlərində saxlanılan əlyazmalar və çap materialları təşkil edir”.* **[3; s.32]**

Öz məqaləsində Əminə xanım iş prosesi zamanı yaradıcılıq və elmi-nəzəri məsələlərin işıqlandırılmasında ustad aşıqlardan Aşıq Ələsgərin oğlu Aşıq Talıbın (1877-1979), Aşıq Mirzə Bayramovun (1888-1954), Aşıq İslam Yusifovun (1898-1968), Aşıq Şəmşirin (1893-1980), Aşıq Sadıq Sultanovun (1896-1965), Aşıq Əmrah Gülməmmədovun (1914-1987) və başqalarının yardımı və məsləhətlərindən də yararlandığını vurğulayır.

Azərbaycan aşıq sənətinin fədakar tədqiqatçılarından biri də musiqişünas-alim, aşıqşünas Tariyel Aydın oğlu Məmmədovdur. Uzun illər aşıq sənətini araşdıran, onun nəzəri əsaslarını, ritmik xüsusiyyətlərini, təsnifatını açıqlayan, aşıq poeziyası ilə aşıq musiqisinin qarşılıqlı əlaqələrini və vəzn quruluşunu təhlil edən, eləcə də 80 aşıq havasını toplayaraq nota alan T.Məmmədov “Azərbaycan xalq-professional musiqisi: aşıq sənəti” (2002), “Azərbaycan aşıqlarının ənənəvi nəğmələri” (1988), “Azərbaycan aşıq havaları” (2007), “Azərbaycan klassik aşıq havaları” (2009), “Koroğlu aşıq havaları” (2010), “Azərbaycan aşıq yaradıcılığı” (2011) və s. monumental əsərlərin müəllifidir.

Azərbaycan aşıq sənətinin tədqiqində böyük töhfələr vermiş, professional saz ifaçısı, tədqiqatçı-alim İlqar İmamverdiyevin də adını qeyd etmək lazımdır. O aşıq havalarını nota yazmaqla yanaşı aşıqlıq sənətinin ifaçılıq ənənələrinin, Azərbaycan, İran və Türk aşıq ifaçılığının tədqiqi ilə də məşğul olmuşdur. Onun “İran türklərində aşıq toy məclisləri” (2006), “Azərbaycan və İran türklərinin aşıq-ifaçılıq sənətinin qarşılıqlı əlaqələri” (2008) kimi əsərləri, “Aşıq Mikayıl Azaflının saz havaları” (2008), “Şirvan aşıqlarının saz havaları” (2011), üç cilddən ibarət “Azərbaycanın 20 saz havası” (2005) və iki cilddə nəşr olunmuş “Azərbay-

canın 40 saz havası" (2006) məcmuələri bizi maraqlandıran bəzi məqamların təhlilində əhəmiyyətli rol oynamışdır.

Aşıq sənətinin öyrənilməsində, tədrisində mühüm əhəmiyyət kəsb edən mənbələrdən biri də 2010-cu ildə Azərbaycanda nəşr olunmuş "Saz məktəbi" dərsliyidir. Tanınmış musiqişünas, tədqiqatçı-alimlərdən Siyavuş Kərimi, Akif Quliyev və Mübariz Əliyevin birgə ərsəyə gətirdikləri bu kitab gənc aşıqlara sənəti kamil səviyyədə; musiqinin nəzəri əsasları və not yazısı ilə (musiqi savadı almaqla) tədris olnmasında əvəzsizdir. Dərslikdə saz alətinin konstruktiv quruluşu, onun köklənməsi (sazın kökləri), pərdələrin səs yüksəklikləri və hər pərdənin aşıq dilində ənənəvi adları, sazın ifa qaydaları geniş şəkildə şərh edilmiş, hər bir aşıq kökünün izahında müəyyən havaların not yazıları göstərilmişdir **[4]**.

Sazla sözün, musiqi ilə şeirin vəhdətindən yaranan aşıq sənəti sinkretik səciyyəyə malik olaraq bir neçə sənət növünü (musiqi, poeziya, teatr və rəqs) özündə cəmləşdirir. Yaxşı aşığın mükəmməl instrumental ifaçılıq bacarığı olmalıdır. Aşığın məharətli saz ifası özlüyündə (hələ oxunmadan) qəlbləri fəth etməli, dinləyicidə havanın ruhuna uyğun əhval-ruhiyyəni yaratmalıdır. Bunun üçün aşıq saz havalarını tam şəkildə, dərindən, bütün melodik cümlələrilə və hər bir ştrix və bəzəklərilə öyrənməli, ustadının bildiyi havaların hamısını mənimsəməyə çalışmalıdır. Aşıq Ələsgər ocağının davamçısı sayılan nəvəsi, filoloq-alim İslam Ələsgər (1925-2014) yazıçı-jurnalist Musa Nəbioğlu ilə müsahibəsində demişdir ki; *"Keçmişdə aşıq bir neçə il ustaddan dərs alar, tam yetişdikdən, ustadından xeyir-dua aldıqdan sonra müstəqil olaraq məclislərə çıxardı. Deyirlər ki, Aşıq Ələsgər şəyirdləri sənətkar kimi tam formalaşana qədər onlara aşıq deməz, adları ilə çağırarmış. Yalnız sənəti tam mənimsədiyinə arxayın olduqdan sonra şəyirdinə aşıq deyə müraciət edərmiş. Ustadının onu aşıq deyə çağırması şəyird üçün əlamətdar hadisəyə çevrilər, həmin gün evlərində şadyanalıq olarmış".* **[2; s.46]**

Aşığı xalqa sevdirən, el içində məşhurlaşdıran ən ümdə keyfiyyətlərindən biri də oxumaq qabiliyyətidir. Sazı mükəmməl ifa etməyi bacaran aşıq həm də məlahətli səsə, gözəl oxumaq qabiliyyətinə malik olarsa, tezliklə xalqın da qəlbində yer alar, sevilən sənətkarlardan sayılar. Xalq arasında belə bir deyim var ki; "oxumaqla çalmaq yarıbayarıdır". Ustad aşıq o kəsdir ki, həm sazda solo ifası zamanı, həm də sazın müşayiəti ilə oxuyarkən heç bir başqa alət, xüsusilə də zərb alətləri olmadan musiqinin ritmini saxlaya bilsin. Doğrudur, bu gün bir çox aşıq ansambllarında sazı müşayiət edən bəzi alətlərdən (balaban, dəf və s.) istifadə olunur. Belə ansambllara ayrı-ayrı aşıq məktəblərində rast gəlirik. Lakin Azərbaycanın "Borçalı aşıq mühiti"ndə təksaz ifaçılığına riayət olunur.

Azərbaycan xalq yaradıcılığının ən zəngin qollarından birini aşıq poeziyası təşkil edir. Əsrlərdən bəri xalqın qəhrəmanlıq mübarizəsini, vətənpərvərliyini, arzu və istəklərini, həsrət və sevgisini, işıqlı gələcəyə aparan yaşamaq həvəsini poeziyanın dili ilə təsvir edən aşıqlar şifahi söz sənətini daim yaşadıb inkişaf etdirmiş, bu əvəzsiz mənəvi xəzinəmizi daha da zənginləşdirmiş, ona yeni məzmun, yeni nəfəs, yeni ruh vermişlər. Sözün, şeirin ən yaxşısını, dəyərlisini aşıq söyləyib, musiqinin (sazın), səsli oxumanın ən təsirlisi aşığın avazında dinlənilib, kəlamların ən ağıllısı, müdrik olanı aşıqların sinəsində toplanıb.

Danışıqla deyilən sözdən fərqli olaraq sazın musiqisi ilə və poetik dillə oxunan söz daha təsirli qüvvəyə malikdir. Aşıq poeziyası əsasən yazılı ədəbiyyatla sıx bağlıdır. Azərbaycanda nəşr olunan "Ozan dünyası" jurnalının 3-cü nömrəsində görkəmli yazıçı-dramaturq Mirzə İbrahimovun bu haqda söylədiyi maraqlı bir fikri qeyd olunur ki; *"Aşıq poeziyası xalq yaradıcılığı ilə yazılı ədəbiyyat arasında bir keçiddir, möhkəm bir körpüdür... Onun*

*kökləri, rişələri folklordan, xalq yaradıcılığından su içirsə, budaqlar, qol-qanadları həmişə ədəbiyyatla qovuşur, ona təsir edir və ondan qüvvət alır".* **[9; s.77]**

Aşıq sənətinin teatral səciyyəsi, zəngin musiqi və söz repertuarına malik aşıqların səhnə mədəniyyəti, artistlik bacarıqları onların xalq qarşısındakı çıxışlarında, dastan həvəskarlarının toplaşdıqları məclislərdə, toy-düyünlərdəki təşkil olunan deyişmə yarışlarında aydın təcəssümünü tapır. Belə məclislər aşıq üçün bir növ sınaqdır. Dastan söyləməyə başlayan aşıq ilk növbədə həmin dastan haqqında dərin bilgiyə, uzun illər ərzində öyrənib hafizəsinə yüklədiyi şeir külliyatına, eləcə də öz natiqlik bacarığı və dastandakı hadisələri özünün aşıq dili ilə bəzəmək bacarığına malik olmalıdır. Yalnız bu keyfiyyətlərə malik aşıqlar xalqın diqqətini və sevgisini qazanmağı bacarır.

Toy məclislərinə gedən, özünü ustad sayan aşıqlar demək olar ki, bütün dastanları bilməlidir. Çünki dastan məclisinə toplaşanlar çox zaman aşığı sınamaq üçün ona hansı dastanı söyləyəcəyini sifariş edirlər. Keçmişdə sifariş olunan dastanı aşıq bilməzdisə, bunu ona irad tutardılar. Aşıq da növbəti məclisə qədər çalışardı ki, həmin dastanı öyrənsin.

Aşıq sənətinin teatral elementləri xüsusilə aşıqların "deyişmə" səhnələrində daha qabarıq şəkildə təzahür olunur. Eyni havanın melodiyasında və eyni şeir formasında bir-birinə sual verib, cavablandıran ("qıfılbınd" və ya "müəmma" formasında tapmaca deyilir) iki aşığın "deyişmə" yarışı, onların meydanda gərdiş edərək tez-tez yerdəyişmələri, hər bir sualı cavablandırarkən özünün məğrurluğunu, üstünlüyünü nümayiş etdirməsi məclis iştirakçılarının böyük marağına səbəb olan tamaşalardandır. Onu da qeyd etməliyik ki, tapmaca deyən aşıq sualını əvvəlcə sazla çalıb-oxuyaraq, daha sonra musiqisiz, deklamasiya şəklində təqdim edir. Digər aşıq da həmin qaydaya riayət edərək tapmacanın cavabını tapır, öz növbəsində yeni bir tapmacanı söyləyir. Müasir dövrdə belə "deyişmə" yarışının əsl kulminasiyasının şahidi olmasaq da, keçmişdə sualı cavablandıra bilməyən aşıq məğlub sayılırdı və bu məğlubiyyətin nəticəsi kimi ənənəyə əsasən öz sazını qalib gələn aşığa verməli idi.

Hər zaman səhnədə, xalqın qarşısında çıxış edən aşıq bütün dövrlərdə cəmiyyətin diqqət mərkəzində olub. Aşığı təkcə sənətkar kimi yox, həm də el ağsaqqalı kimi dəyərləndiriblər. Çünki ustad aşıqlar sənətini kamil bilməsi ilə yanaşı, həm də şəxsi nümunəsi, davranışı və geyim mədəniyyəti ilə seçilmişlər. Aşıq Ələsgər nahaqdan deməyib ki:

Aşıq olub diyar-diyar gəzənin
Əzəl başdan pür kamalı gərəkdir.
Oturub-durmaqda ədəbin bilə,
Mərifət elmindən halı gərəkdir.

Aşıq sənətində "rəqs" məfhumu öz təcəssümünü xalqın toy ənənələrində göstərmişdir. Keçmişdə toy mərasimləri bir neçə gün davam edərdi. Həmin günlərin müəyyən saatlarında aşıqlar dastan söyləyər, digər aşıqlarla deyişər, məclisə rəngarənglik qatardılar. Bu çıxışları dinləməyə əsasən yaşlı və orta nəsil insanlar toplaşardı. Lakin sonrakı vaxtlarda (xüsusilə hava qaralanda) cavanlar müxtəlif oynaq havalar sifariş edər, oynayardılar. Belə havalar adətən zurna və nağara alətlərində çalınardı. Lakin bəzi insanlar aşığa öz xoşladığı aşıq havasını sifariş edər, aşıq da həmin havanı çalıb oxuyardı. Orta templi və ya oynaq havanın musiqisi sifarişçinin sümüyünə düşərdisə o, meydana çıxıb oynayar və istədiyi şəxsləri də oyuna dəvət edərdi. Aşıq meydanın qızışdığını görüb, sazı ifa edə-edə özü də onlarla oynayar, məclisi daha da cuşa gətirərdi. Aşığın məharətli, düzgün və səlis oynamaq bacarığı toy iştirakçılarının alqışına səbəb olardı. Aşığın həm ifasını, həm də gözəl oyununu izləyib bəyənənlər ona nəmər də verərdilər.

Müasir toy adətləri bir çox dəyişikliklərə uğrasa da, bölgələrimizin böyük əksəriyyətində aşığa olan dəyər, ehtiram qorunmaqdadır. Aşığın heyranedici rəqsini bu gün Azərbaycanın Şirvan aşıqlarının çıxışlarında izləyə bilərik. Onu da qeyd etməliyik ki, Şirvan aşıq məktəbinin musiqi repertuarında oynaq ritmli havalar da çoxluq təşkil edir. Belə havalardan "Şirvan gözəlləməsi", "Ordubadi", "Nar ağacı", "Bala Nərgiz", "Kəndimiz", "Nə bağ bildi, nə də bağban" və başqalarını göstərə bilərik. Həm də unutmamalıyıq ki, bu gün rəqs sənətində adı çəkilən, rəqs havası kimi tanınan bəzi "şəşəngi"lər və "pişro"lar (aşıq havası kimi "Peşrov" adlanır) əslində aşıq sənətindən keçmə havalardır.

Aydındır ki, yuxarıda sadalanan keyfiyyətlərin hamısının bütün aşıqlarda eyni dərəcədə olması mümkün deyil. Çünki bu məsələdə "ifaçılıq", "səs", "nitq" və s. kimi amillərin əhəmiyyətli rolu vardır. Bəzi aşıqlar çox ürəyəyatımlı, texniki cəhətdən mükəmməl saz çala bilsələr də, onların şeir və ya dastan repertuarı qənaətbəxş deyil. Bəzilərinin səs imkanları ən zil pərdələrdəki melodiyanı oxumağa imkan versə də, saz çalmağı, özünü müşayiət etməyi zəifdir. Elə aşıqlar var ki, bədahətən söz demək qabiliyyətinə, şair kimi şeir yaratmaq bacarığına malikdir. Bir qisim aşıqlar isə özü heç nə yaratmasa da, yaxşı müəllim, gələcək nəslə kamil sənətkar yetişdirə bilən gözəl pedaqoqdur. Bu mənada aşıqları üç kateqoriyaya bölmək olar;

1. Yaradıcı aşıqlar
2. İfaçı aşıqlar
3. Aşıq-şairlər

Yaradıcı aşıqlar saz çalıb oxumaqdan başqa daha bir neçə mühüm bacarıqlara malikdirlər. Belə ki, onlar yeni aşıq havacatları bəstələyir, xalqın ruhunu oxşayan yeni əfsanələr, dastanlar yaradırlar. Nümunə kimi Azərbaycanın Tovuz rayonunda dünyaya göz açmış Aşıq Mikayıl Azaflının (Mikayıl Zeynalov 1924-1990) yaradıcılığını qeyd edə bilərik. Bəstəkar qəlbli aşıq "Azaflı müxəmməsi", "Azaflı dübeyti", "Mehribanı", "Azaflı bəhri", "Məzahiri", "Azaflı dağları", "Mikayılı", "Şah sarayı" kimi aşıq havalarını yaratmışdır. Daha sonra Azərbaycanın "Borçalı aşıq məktəbi"nin ən parlaq simalarından sayılan Aşıq Əmrah Gülməmmədovun (1914-1987) bəstəkarlıq istedadı ona "Yurd yeri", "Süsənbəri", "Taciri" və s. havalarını yaratmağa sövq etmişdir. Öz bəstələdiyi havalardan başqa Ə.Gülməmmədov bir neçə qədim Borçalı havalarını da yenidən bərpa edərək, təkmilləşdirərək məlum olan 72 saz havasının sayını 81-ə çatdırmışdır. Heç təsadüfi deyil ki, bu gün "Urmiya aşıq məktəbi"ndə ustadın adı ilə bağlı "Urmiya Əmrahısı", "Xoy Əmrahısı" havaları da səslənməkdədir.

İfaçı aşıqlar əsasən mükəmməl saz ifaçılığına, dərin poetik biliyə və natiqlik vərdişinə yiyələnənlərdir. Onlar əsas üstünlüyü məclis aparmaq istiqamətində əldə edirlər. Belə ki, toy-düyünə yığışan insanlar aşığın ürəyəyatımlı çalğısından, məlahətli və şirin avazından, eləcə də duzlu-məzəli söhbətlərindən həzz alırlar. Belə aşıqlar həmişə xalqın nəzər-diqqətində olurlar.

Aşıq-şairlərin saz çalıb-oxumalarından (bəzi aşıqlar oxumurlar) başqa əsas üstünlükləri poeziyanı, yazılı və şifahi ədəbiyyatı, nəzmin bütün forma və qanunauyğunluqlarını dərindən bilmələridir. Bu kateqoriyaya daxil olan aşıqlar, xalq ruhunda, əsl aşıq şeirləri yaradaraq aşıq poeziyasını daha da zənginləşdirirlər.

Aşıq ifaçılığının mühüm xüsusiyyətlərindən biri də ifa ediləcək melodiyaya uyğun mətnin seçilməsidir. Bu zaman iki qaydanın gözlənilməsi çox vacibdir. Birincisi, musiqinin melodik məzmununa və xarakterinə görə şeir seçilməlidir. Aşıq ifaçılığında tanınmış simalardan Aydın Çobanoğlu (1951-1993) özünün "Saz, söz, ifaçılıq və..." adlı məqaləsində yazır

ki; *"...məzmununa görə mətn melodiyanı tamamlamalıdır. Belə ki, qəmli melodiya üzərində nikbin ruhlu və ya əksinə, şaqraq, oynaq hava üstündə sızıltılı, qəmli bir şeiri oxumaq əks təsir bağışlayır"*. **[6; s.48]**

İkincisi isə şeirin növünə görə aşıq havası seçilməlidir. Məlumdur ki, "divani"lər, "müxəmməs"lər və "təcnis"lər eyniadlı aşıq havalarında ifa edilir. Onu da qeyd etməliyik ki, "divani" və "müxəmməs"in iki adda melodiyası mövcuddur; − "Baş divani", "Ayaq divani", "Baş müxəmməs", "Orta müxəmməs". Lakin "qoşma" və "gəraylı"lar bir çox hava üstündə oxuna bilər. Aşıq şeirin məzmunu ilə yanaşı misra quruluşuna görə də mətn seçsə daha effektli olar. Məsələn, "Hüseyni" havasının motivi 6+5, "Naxçıvanı" havasının motivi isə 4+4+3 bölgüdə yazılmış "qoşma"lar tələb edir.

Düzgün şeir mətnini və lazım olan havanı seçməyi bacaran ustad aşıq ifa zamanı müəyyən improvizəyə də yer ayırır. Belə ki, oxuduğu havanın daha təsirli və rəngarəng olması baxımından aşıq seçdiyi mətndən əlavə "gül" adlanan əlavə beyt və bəndlərdən, bayatılardan da istifadə edir. Azərbaycanın tanınmış filoloq-alimləri Mahmud Allahmanlı və Rza Xəlilovun birgə tərtib etdikləri, 2013-cü ildə işıq üzü görmüş "Ozan" kitabında qeyd olunur ki; *"İmprovizatorluq məsələsi aşıqlıqda keyfiyyət – yaradıcılıq xüsusiyyətidir... Aşıqda olan improvizasiya və sinkretizm məsələnin tutarlı və aparıcı tərəfidir. Bədahətən söz demək və məclisin ümumi ruhuna, ahənginə uyğun yaradıcılıq manevri edə bilmək aşığın nüfuzu və sənət qüdrəti ilə bağlı məsələdir"*. **[8; s.219]**

Yuxarıda sadalanan keyfiyyətləri əldə edən aşıqlar – ustad aşıqlar sayılırlar. Sənətdə ustad adını qazanmaq üçün aşıq hər zaman xalqın içində olmalı, onun həyatına, məişətinə bağlı sənətkar kimi el-obanı dolaşaraq hər hadisədən halı olmalı, onu sevən, qəbul edən, dinləməyə ehtiyac duyan insanlara yaxın olmaq üçün şəhər və kəndləri gəzməlidir. Bu yolla aşıq həm məclislərdə iştirak edir, sənətini xalqa nümayiş etdirir, həm də müxtəlif yurdları gəzərək istedadlı sənətçilərlə tanış olur, onlardan öyrənir, sonra da öyrəndiklərini xalqa çatdırır, insanları maarifləndirir.

## Ədəbiyyat siyahısı:

1. Bədəlbəyli Ə.B. İzahlı monoqrafik musiqi lüğəti. Bakı, 2017, 512 s.
2. Çobanov M.N. Ədəbiyyatımız həmişə sazla bağlı olub. "Ozan dünyası" jurnalı №2, Bakı, "Nurlan", 2010, səh.45-48
3. Eldarova Ə.M. Azərbaycan aşıq sənəti. "Azərbaycan xalq musiqisi" (oçerklər). Bakı, "Elm" nəşriyyatı, 1981, səh.30-51
4. Kərimi S., Quliyev A., Əliyev M. Saz məktəbi. Dərslik. Bakı, "Qarabağ", 2007, 230 s.
5. Məmmədov T.A. Azərbaycan aşıq yaradıcılığı. Ali musiqi məktəbləri üçün dərslik. Bakı, "Apostrof" çap evi, 2011, 648 s.
6. Musayev A.Ç. Saz, söz, ifaçılıq və... "Ozan dünyası" jurnalı, №2(5). Bakı, "Nurlan", 2011, səh.47-51
7. Nutku Ö. Aşık ve meddah hekayeleri. III.Uluslararası Türk folklor kongresi bildirileri., III cilt. Ankara, 1987.
8. Ozan. Aşıq yaradıcılığının inkişaf yolları. Tərtib edənlər Mahmud Allahmanlı və Rza Xəlilov. Bakı, "Çaşıoğlu", 2013, 788 s.
9. Vəliyev İ.Ö. Aşıq sənəti: qaynaqlar və ənənələr. "Ozan dünyası" jurnalı, №3. Bakı, "Nurlan", 2010, səh.73-80

**Арсалани Саманэ Хабиболлах гызы**

## Основные характеристики азербайджанского ашыгского искусства

**Резюме**: В статье интерпретируются специфические черты ашикского искусства, его синкретическое проявление в форме единства инструментального и вокального исполнения, поэзии (поэт), театра (художественности) и хореографии (танца). Здесь раскрыта обширная информация о вокальных возможностях Ашика, методах исполнения и сценическом мастерстве.

В статье упоминаются книги и научные труды, написанные многими композиторами, музыковедами, а также учеными-литературоведами по изучению ашыгского искусства, и выделяются цитаты из этих источников.

**Ключевые слова:** ашыг, саз, поэзия, исполнительство, состязание.

**Arsalani Samaneh Khabibollah**

## Main specific characteristics of Azerbaijan ashyg art

**Summary:** The article interprets the specific features of ashik art, its syncretic manifestation in the form of the unity of instrumental and vocal performance, poetry (poet), theater (art) and choreography (dance). Extensive information about Ashik's vocal capabilities, performance methods and stagecraft is revealed here.

The article mentions books and scientific works written by many composers, musicologists, as well as literary scholars on the study of Ashyg art, and highlights quotes from these sources.

**Key words:** ashyg, saz, poetry, performance, conversation

**Məqalənin redaksiyaya daxil olma tarixi: 02. 12. 2023**